# “Nişanların beynəlxalq qeydiyyatı haqqında” Madrid Sazişinin Protokoluna qoşulmaq barəsində

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikası “Nişanların beynəlxalq qeydiyyatı haqqında” Madrid Sazişinin 1989-cu il iyunun 27-də Madrid şəhərində qəbul edilmiş Protokoluna **qoşulsun.**

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 oktyabr 2006-cı il
№ 142-IIIQ

**“Nişanların beynəlxalq qeydiyyatı haqqında” Madrid Sazişinin**

**PROTOKOLU**

*(27 iyun 1989-cu il)*

Maddə 1

**Madrid İttifaqına üzvlük**

Bu Protokolun iştirakçısı olan dövlətlər (bundan sonra - Razılığa gələn Dövlətlər), - hətta 1967-ci ildə Stokholmda yenidən baxılmış və 1979-cu ildə dəyişdirilmiş Nişanların beynəlxalq qeydiyyatı haqqında Madrid Sazişinin (bundan sonra - “Madrid Sazişi (Stokholm)”) üzvü olmasalar da, - və bu Protokolun iştirakçısı olan, 14.1(b) maddəsində göstərilən təşkilatlar (bundan sonra - “Razılığa gələn Təşkilatlar”) Madrid Sazişinin (Stokholm) iştirakçısı olan ölkələrdən ibarət İttifaqın üzvləridir. Bu Protokolda “Razılığa gələn Tərəflər” ə edilən istinadlar Razılığa gələn Dövlətlərə və Razılığa gələn Təşkilatlara olan istinadları əks etdirir.

M a d d ə 2

**Beynəlxalq qeydiyyat yolu ilə mühafizənin təmin olunması**

(1) Əgər nişanın qeydiyyatı üçün onun barəsində iddia sənədi Razılığa gələn Tərəfin İdarəsinə verilibsə və ya əgər nişan Razılığa gələn Tərəfin İdarəsinin reyestrində qeydiyyata alınıbsa, bu iddia sənədinin iddiaçısı olan şəxs (bundan sonra “baza qeydiyyatı” adlandırılacaq), bu Protokolun müddəalarını nəzərə almaqla, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Beynəlxalq Bürosunun reyestrində həmin nişanın qeydiyyatını aparmaq yolu ilə nişanın mühafizəsini Razılığa gələn Tərəflərin ərazisində təmin edə bilər (bundan sonra

müvafiq olaraq - “Təşkilat”, “Beynəlxalq büro”, “Beynəlxalq reyestr”, “Beynəlxalq qeydiyyat”), bu şərtlə ki:

(i) baza iddia sənədi Razılığa gələn Tərəfin İdarəsinə verilib və ya bu cür İdarə tərəfindən baza qeydiyyatı həyata keçirilib, həmin iddia sənədinin iddiaçısı olan şəxs və ya bu qeydiyyatın sahibi Razılığa gələn həmin dövlətin vətəndaşıdır, yaxud onun ərazisində yaşayır, yaxud da göstərilən Razılığa gələn dövlətdə həqiqətən və saxta olmayan sənaye və ya ticarət müəssisəsinə malikdir;

(ii) baza iddia sənədi Razılığa gələn Təşkilatın İdarəsinə verilib və ya bu cür İdarə tərəfindən baza qeydiyyatı həyata keçirilib, həmin iddia sənədinin iddiaçısı olan şəxs və ya bu qeydiyyatın sahibi, Razılığa gələn bu təşkilata üzv dövlətin vətəndaşıdır, yaxud onun ərazisində yaşayır, yaxud da göstərilən Razılığa gələn təşkilatın ərazisində həqiqətən və saxta olmayan sənaye və ya ticarət müəssisəsinə malikdir;

(2) beynəlxalq qeydiyyat üçün iddia sənədi (bundan sonra “beynəlxalq iddia sənədi”), baza iddia sənədi verilən və ya baza qeydiyyatı aparılan (bundan sonra “mənşə İdarəsi”) İdarə vasitəsilə Beynəlxalq büroya verilməlidir.

(3) Bu Protokolda “İdarəyə” və ya “Razılığa gələn Tərəfin İdarəsinə” edilən istinadlar nişanı qeydiyyata almaq üçün Razılığa gələn Tərəfin həvalə etdiyi İdarəyə olan istinad, “nişanlara” edilən istinad isə əmtəə nişanları və xidmət nişanlarına olan istinad deməkdir.

(4) Bu Protokolun məqsədləri üçün “Razılığa gələn Tərəflərin ərazisi” termini aşağıdakıları ifadə edir:

əgər Razılığa gələn Tərəf dövlət olarsa, onun ərazisini;

əgər Razılığa gələn Tərəf hökumətlərarası təşkilatdırsa, bu hökumətlərarası təşkilatın yaradılması haqqında sazişin tətbiq edildiyi ərazini.

Maddə 3
**Beynəlxalq iddia sənədi**

(1) Bu Protokola uyğun verilən istənilən beynəlxalq iddia sənədi Təlimatda göstərilən blankda təqdim olunmalıdır. Mənşə İdarəsi beynəlxalq iddia sənədində verilən məlumatların, təqdim olunan anda baza iddia sənədində və ya baza qeydiyyatında göstərilən məlumatlara uyğun gəldiyini təsdiq edir.

Bununla yanaşı, qeyd edilən İdarə aşağıdakıları göstərir:

(i) baza iddia sənədi halında - bu iddia sənədinin nömrəsini və tarixini;

(ii) baza qeydiyyatı halında - bu iddia sənədinin qeydiyyat nömrəsini və tarixini, o cümlədən baza qeydiyyatının aparıldığı iddia sənədinin nömrəsini və tarixini.

Mənşə İdarəsi həmçinin beynəlxalq iddia sənədinin tarixini də göstərir.

(2) İddiaçı mühafizəsi xahiş edilən nişanın aid edildiyi əmtəə və xidmətləri göstərməlidir. O, həmçinin mümkün olduğu təqdirdə, nişanların qeydiyyatı üçün əmtəə və xidmətlərin Beynəlxalq təsnifatı haqqında Nitsa Sazişi ilə təsis olunan təsnifata uyğun sinif və ya sinifləri də göstərməlidir. Əgər iddiaçı sinifləri göstərmirsə, onda Beynəlxalq büro özü, göstərilən təsnifatın müvafiq sinifləri üzrə əmtəə və xidmətləri sinifləşdirir. İddiaçı tərəfindən əmtəə və ya xidmətlərə görə müəyyən edilən siniflər, mənşə İdarəsinin razılığı əsasında Beynəlxalq büro tərəfindən yoxlanılır. Göstərilən İdarə ilə Beynəlxalq büro arasında fikir ayrılığı olduğu halda, axırıncının mövqeyi həlledici hesab edilir.

(3) Əgər iddiaçı öz nişanının fərqləndirici elementi kimi rəngin mühafizə olunmasını xahiş edirsə, onda aşağıdakıları yerinə yetirməlidir:

(i) bu barədə bildiriş verməklə və xahiş olunan rəng və ya rənglərin kombinasiyasını göstərməklə özünün beynəlxalq iddia sənədini göndərir;

(ii) Beynəlxalq büroya bildirişlə birgə göndəriləcək həmin nişanın rəngli təsvirini özünün beynəlxalq iddia sənədinə əlavə edir; bu cür təsvirlərin nüsxələrinin sayı Təlimatla müəyyən edilir.

(4) Beynəlxalq büro 1-ci maddəyə uyğun olaraq, verilən iddia sənədi əsasında nişanı təxirə salmadan qeydiyyata alır. Qeydiyyatın tarixi, mənşə İdarəsinə beynəlxalq qeydiyyat üçün İddia sənədinin verildiyi tarixdən hesab edilir, bu şərtlə ki, Beynəlxalq büro göstərilən tarixdən hesablamaqla həmin iddia sənədini iki ay ərzində alsın. Əgər Beynəlxalq büro beynəlxalq iddia sənədini bu müddət ərzində almırsa, onda Beynəlxalq büro onun qeydiyyatını, aldığı tarixdən aparır. Beynəlxalq büro təxirə salmadan beynəlxalq qeydiyyat barədə maraqlı idarəni məlumatlandırır. Beynəlxalq reyestrdə qeydiyyata alınan nişanlar, beynəlxalq iddia sənədində göstərilən məlumatlar əsasında Beynəlxalq büronun nəşri olan dövri bülletenlərdə dərc olunur.

(5) Beynəlxalq reyestrdə qeydiyyata alınan nişanlarla tanış olmaq məqsədilə hər idarə, Beynəlxalq bürodan yuxarıda göstərilən bülletenlərdən müəyyən qədərini pulsuz, müəyyən qədərini isə 10-cu maddədə göstərildiyi kimi, Assambleyanın (bundan sonra "Assambleya") müəyyən etdiyi şərtlər daxilində ucuz qiymətə alır. Bu cür tanış olma, Razılığa gələn bütün Tərəflər üçün məqbul sayılır və beynəlxalq qeydiyyatın sahibindən başqa heç nə tələb edilə bilməz.

Maddə 3 b i s

**Ərazi üzrə fəaliyyət**

Beynəlxalq qeydiyyat nəticəsində yaranan mühafizə, yalnız beynəlxalq iddia sənədini verən şəxsin və ya beynəlxalq qeydiyyatın sahibinin bəyannaməsi əsasında Razılığa gələn Tərəflərə aid edilir. Lakin bu cür bəyannamə, İdarəsi mənşə İdarəsi olan Razılığa gələn Tərəfə aid edilə bilməz.

Maddə 3 t e r

**"Ərazinin genişləndirilməsi" barədə bəyannamə**

(1) Razılığa gələn Tərəfə görə beynəlxalq qeydiyyat nəticəsində yaranan mühafizənin genişləndirilməsinə dair istənilən bəyannamə beynəlxalq iddia sənədində ayrıca verilməlidir.

(2) Ərazinin genişləndirilməsinə dair bəyannamə beynəlxalq qeydiyyatdan sonra da verilə bilər. Bu cür bəyannamə, Təlimatda nəzərdə tutulduğu kimi, blankda tərtib olunmalıdır. Beynəlxalq büro verilən bəyannamə üzrə qeydləri təxirə salmadan Beynəlxalq reyestrə daxil edir və maraqlı şəxslərə və ya maraqlı İdarələrə bu barədə məlumat göndərir. Bu cür bəyannamələr Beynəlxalq büronun dövri bülletenlərində dərc olunur. Ərazinin genişləndirilməsi onun haqqında məlumatların Beynəlxalq reyestrə daxil edildiyi tarixdən qüvvəyə minir və beynəlxalq qeydiyyatın qüvvədə olma müddətinin bitdiyi tarixdən də qüvvəsini itirir.

Maddə 4

**Beynəlxalq qeydiyyatın qüvvədə olması**

(1)(a) Qeydiyyat tarixindən və ya 3 və 3ter maddələrinin müddəalarına müvafiq qeydlərin daxil edildiyi tarixdən, Razılığa gələn hər maraqlı Tərəfdə nişanın mühafizəsi, həmin nişanın Razılığa gələn bu Tərəfin bilavasitə İdarəsində saxlanıldığı kimi olacaqdır. Əgər Beynəlxalq büroya 5 (1) və (2) maddələrinə müvafiq hər hansı imtina ilə bağlı bildiriş verilməyibsə və ya əgər bu maddəyə uyğun imtina barədə bildiriş verilib və sonradan geri götürülübsə, onda göstərilən tarixdən Razılığa gələn maraqlı Tərəfdə nişanın mühafizəsi

Razılığa gələn bu Tərəfin İdarəsində həmin nişanın qeydiyyatı ilə yaranan mühafizə ilə eyni olacaqdır.

(b) 3-cü maddədə nəzərdə tutulduğu kimi, əmtəə və xidmətlərin siniflərinin göstərilməsi, nişanın mühafizə həcminin müəyyənləşdirilməsi zamanı Razılığa gələn Tərəflə bağlılıq təşkil etmir.

(2) İstənilən beynəlxalq qeydiyyat zamanı, bu maddənin D bölməsində nəzərdə tutulan formal tələblərə riayət etmədən, sənaye mülkiyyətinin mühafizəsi məsələləri üzrə Paris Konvensiyasının 4-cü maddəsi ilə müəyyən edilən ilkinlik hüququndan istifadə olunur.

Maddə 4 b i s

**Milli və ya regional qeydiyyatın beynəlxalq qeydiyyata dəyişdirilməsi**

(1) Əgər nişan Razılığa gələn Tərəfin İdarəsində milli və ya regional qeydiyyatın predmeti olmaqla yanaşı, həmçinin beynəlxalq qeydiyyatın predmetidirsə və hər iki qeydiyyat eyni şəxsin adına aparılıbsa, beynəlxalq qeydiyyata, milli və ya regional qeydiyyatla əldə edilən hüquqlara toxunmadan, milli və ya regional qeydiyyatın əvəzləyicisi kimi baxılır, o şərtlə ki:

(i) beynəlxalq qeydiyyat nəticəsində yaranan mühafizə 3ter (1) və ya (2) maddələrinə müvafiq, göstərilən Razılığa gələn Tərəflərə şamil edilsin;

(ii) milli və regional qeydiyyatda göstərilən bütün əmtəə və xidmətlər həmçinin Razılığa gələn Tərəfə aid olan beynəlxalq qeydiyyatda da göstərilir;

(iii) mühafizənin yuxarıda göstərilən genişlənməsi milli və ya regional qeydiyyat tarixindən sonra qüvvəyə minir.

(2) (1) bəndində göstərilən İdarə bəyannamə əsasında öz reyestrində beynəlxalq qeydiyyat barədə qeydlər etməlidir.

Maddə 5

**Razılığa gələn bəzi Tərəflərə aid mühafizə verilməsindən imtina və beynəlxalq qeydiyyatın etibarsız sayılması**

(1) Beynəlxalq qeydiyyat nəticəsində yaranan mühafizənin, 3ter (1) və ya (2) maddələrinə uyğun Razılığa gələn Tərəfdə genişlənməsinə dair Beynəlxalq büronun bildirişini alan Razılığa gələn həmin Tərəfin İdarəsi, əgər qanunvericiliyin tətbiqi yol verərsə, Razılığa gələn göstərilən Tərəfdə bu cür genişlənmənin predmeti olan nişana mühafizə verməyin mümkün olmasından imtina edilməsi barədə bildirişlə bəyanat vermək hüququna malikdir. Bu cür imtina, yalnız sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyasında göstərilən dəlillərə əsaslana bilər və bilavasitə imtina barədə bildiriş verən İdarəyə təqdim edilən iddia sənədinin aid olduğu nişana tətbiq edilir. Lakin nişanların mühafizə olunmasından, yalnız o əsaslara - nişanların məhdud sayda siniflərə və ya məhdud sayda əmtəə və ya xidmətlərə görə qeydiyyata alınmasına hətta milli qanunvericiliyin imkan verdiyi əsaslara görə belə, qismən də olsa imtina edilə bilməz.

(2)(a) Bu hüquqdan istifadə etmək istəyən istənilən İdarə, (b) və (c) yarımbəndlərini nəzərə almaqla, həmin İdarə üçün tətbiqi nəzərdə tutulan qanunvericiliyə uyğun olaraq, Beynəlxalq büro tərəfindən həmin İdarəyə göndərilən və bu maddənin (1) bəndində nəzərdə tutulduğu kimi, mühafizənin genişləndirilməsi barədə bildirişin verildiyi tarixdən hesablamaqla, bir il müddət keçməsindən gec olmayaraq, bütün müddət ərzində, imtina ilə əlaqədar dəlillərin hamısını göstərməklə, Beynəlxalq büroya bildiriş verməlidir.

(b) (a) yarımbəndinə baxmayaraq, Razılığa gələn istənilən Tərəf bildiriş verə bilər ki, bu Protokolun qüvvəsi daxilində həyata keçirilən beynəlxalq qeydiyyatın müddəti (a) yarımbəndində göstərilən bir ildən 18 aya dəyişdirilsin.

(c) Bu cür bildirişdə həmçinin göstərilə bilər ki, mühafizədən imtina, mühafizənin verilməsinə qarşı etirazla müşayiət olunarsa, onda Razılığa gələn Tərəfin göstərdiyi İdarə 18 ay müddət bitəndən sonra bu cür imtina barədə Beynəlxalq büroya bildiriş verə bilər. Bu İdarə, konkret beynəlxalq qeydiyyata aid mühafizənin verilməsindən imtina edilməsi barədə 18 ay müddət bitənə kimi o halda bildiriş verə bilər ki, əgər:

(i) o, 18 ay müddət bitənə kimi Beynəlxalq büronu xəbərdar edirsə ki, 18 ay müddət bitdikdən sonra etiraz daxil ola bilər və

(ii) etiraz əsasında yaranan imtina barədə bildiriş, etirazın verilmə tarixindən hesablanmaqla, maksimal müddət olan yeddi ay ərzində həyata keçirilmişdir; əgər etirazın verilmə müddəti yeddi aydan əvvəl bitirsə, onda bildiriş, etiraz üçün bu tarixin bitdiyi tarixdən hesablanmaqla bir ay ərzində verilməlidir.

(d) (b) və (j) yarımbəndlərinə müvafiq olaraq istənilən bəyannamə, 14 (2) maddəsində nəzərdə tutulan aktlara uyğun verilə bilər və bu zaman bəyannamənin qüvvəyə mindiyi tarix bəyannamə verən dövlətlərə və ya hökumətlərarası təşkilatlara görə Protokolun qüvvəyə mindiyi tarixlə eyni olur. Bu cür bəyannamə həmçinin gec də verilə bilər; bu halda o, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Baş direktoru (bundan sonra - Baş direktor) bəyannaməni aldığı tarixdən üç ay sonra və ya beynəlxalq qeydiyyata aid bəyannamədə göstərilən hər hansı daha gec tarixdən, bəyannamənin qüvvəyə mindiyi tarixlə eyni olan tarixdən və ya daha gec tarixdən qüvvəyə minir.

(e) Bu Protokolun qüvvəyə mindiyi tarixdən on il ötdükdən sonra, Assambleya (a) - (d) yarımbəndləri ilə müəyyən edilən sistemin fəaliyyətini yoxlayır. Göstərilən yarımbəndin müddəaları sonradan, Assambleyanın yekdilliklə qəbul olunan qərarı əsasında dəyişdirilə bilər.

(3) Beynəlxalq büro təxirə salmadan imtina barədə bildirişin bir nüsxəsini beynəlxalq qeydiyyatın sahibinə göndərir. Göstərilən beynəlxalq qeydiyyatın sahibi, əgər nişan onun tərəfindən bilavasitə imtina barədə bəyannamə verən İdarəyə verilibsə, həmçinin etiraz vermək üçün bu cür imkanlara malik olur. Əgər Beynəlxalq büro (2)(c)(i) bəndinə uyğun informasiya alarsa, təxirə salmadan onu beynəlxalq qeydiyyatın sahibinə göndərir.

(4) Beynəlxalq büro nişanın mühafizəsinə qarşı verilən imtinaya dair dəlilləri, müvafiq sorğu verən maraqlı tərəflərə bildirməlidir.

(5) (1) və (2) bəndlərinə uyğun konkret beynəlxalq qeydiyyata aid ilkin və ya son imtina barədə Beynəlxalq büroya bildiriş verməyən istənilən idarə (1) bəndində nəzərdə tutulan bu beynəlxalq qeydiyyata aid hüququ itirir.

(6) Razılığa gələn Tərəfin ərazisində beynəlxalq qeydiyyatın etibarsız sayılması barədə qərar, bu beynəlxalq qeydiyyatın sahibinə öz hüquqlarını qorumaq məqsədilə vaxt imkanı vermədən, Razılığa gələn həmin Tərəfin səlahiyyətli orqanı tərəfindən qəbul edilə bilməz. Beynəlxalq qeydiyyatın etibarsız sayılması barədə qərar Beynəlxalq büroya göndərilir.

Maddə 5 b i s

**Nişanın ayrı-ayrı elementlərindən istifadənin qanuniliyini təsdiqləyən sənəd**

Gerblərdən, gerb şitlərindən, portretlərdən, fərqlənmə nişanlarının dərəcələrindən, firma adlarından və ya iddiaçının adından başqa, digər şəxslərin adlarından və ya analoji yazılardan ayrıca element kimi nişanların tərkibində istifadənin qanuniliyini təsdiqləyən və Razılığa gələn Tərəfin idarəsinin tələb edə biləcəyi sənəd hər cür leqallaşmadan, həmçinin mənşə ölkəsinin təsdiqlənməsi istisna olmaqla, bütün növ təsdiqləmələrdən azad olunur.

Maddə 5 t e r

**Beynəlxalq reyestrdə olan qeydlərin surəti.**
**Yeniliyə görə axtarış, Beynəlxalq reyestrdən çıxarış**

(1) Beynəlxalq büro istənilən şəxsə onun xahişi ilə və Təlimatla müəyyən edilən rüsum ödənilməsi şərtilə, hər hansı nişan barədə Beynəlxalq reyestrdə aparılan qeydlərin surətini təqdim edir.

(2) Beynəlxalq büro həmçinin ödənişə uyğun, nişanların fondu üzrə, beynəlxalq qeydiyyatın predmeti olan yeniliyə görə məlumat axtarışı apara bilər.

(3) Razılığa gələn hər hansı Tərəfə təqdim etmək məqsədilə beynəlxalq reyestrdən xahiş olunan çıxarış hər cür leqallaşmadan azad olunur.

Maddə 6

**Beynəlxalq qeydiyyatın qüvvədə olma müddəti, beynəlxalq qeydiyyatın asılı olması və asılı olmaması**

(1) Beynəlxalq büroda nişanın qeydiyyatı 7-ci maddədə müəyyən edilən şərtlərə uyğun sonradan artırılmaqla on il müddətinə aparılır.

(2) Beynəlxalq qeydiyyat tarixindən hesablamaqla, həmin tarixdən beş il ötdükdən sonra bu qeydiyyat, baza iddia sənədindən və ya onun əsasında aparılan qeydiyyatdan, yaxud da sonrakı müddəalar nəzərə alınmaqla, müəyyən hallarla asılılıq təşkil edən baza qeydiyyatından asılı olmur.

(3) Beynəlxalq qeydiyyat nəticəsində yaranan mühafizə, hüquqların verilməsinin predmeti olub - olmamasından asılı olmayaraq, beynəlxalq qeydiyyat tarixindən hesablamaqla, həmin tarixdən beş il ötənə kimi, baza iddia sənədi və ya onun əsasında aparılan qeydiyyat, yaxud da sonrakı müddəalar nəzərə alınmaqla, müəyyən hallardan asılı olaraq, baza qeydiyyatı geri çağırılıbsa, onun qüvvədə olma müddəti bitibsə və ya ondan imtina olunubsa, yaxud da o, imtina barədə qəti qərarın, ləğv etmənin predmetidirsə, reyestrdən çıxarılıbsa və ya beynəlxalq qeydiyyatda göstərilən əmtəələrin, xidmətlərin hamısı və ya müəyyən hissəsi üçün etibarsız sayılıbsa, artıq xahiş edilə bilməz. Bu həmçinin o halda tətbiq oluna bilər ki, əgər:

(i) baza iddia sənədinin gerçəkliyinin qəbul edilməsindən imtina qərarına qarşı şikayət verilmişdirsə;

(ii) baza iddia sənədinin geri çağırılması və ya ləğv edilməsi ilə əlaqədar məhkəməyə və ya məhkəmə araşdırılmasına müraciət, reyestrdən çıxarılma və ya baza iddia sənədi və ya baza qeydiyyatı əsasında aparılan qeydiyyatın etibarsız sayılması halları olmuşdursa və ya

(iii) baza iddia sənədinə etiraz beş il ötdükdən sonra ləğv etmə barədə qəti qərarla nəticələnir, reyestrdən çıxarılma və ya etibarsız sayılma, yaxud baza iddia sənədi və ya onun əsasında aparılan qeydiyyat, yaxud da sonrakı müddəalar nəzərə alınmaqla, müəyyən hallardan asılı olaraq baza qeydiyyatını tələb edən qərar çıxarılmışdırsa, o şərtlə ki, bu cür şikayət vermə və ya məhkəmə araşdırmaları və ya imtina göstərilən müddət qurtarana kimi qaldırılmış olsun. Bu həmçinin o halda tətbiq edilə bilər ki, baza iddia sənədi geri çağırılmış olsun və ya baza qeydiyyatından beş il ötdükdən sonra imtina edilsin, o şərtlə ki, geri çağırılma və ya imtina zamanı göstərilən iddia sənədi və ya göstərilən qeydiyyat olsun, (i), (ii) və (iii) yarımbəndlərində nəzərdə tutulan hər hansı prosedurun predmeti olsun və bu prosedura göstərilən beş il müddət ötməyənə kimi başlansın.

(4) Mənşə İdarəsi (3) bəndinə uyğun olaraq müvafiq vəziyyət və qərarlar barədə, Təlimatda yazıldığı kimi, Beynəlxalq büronu xəbərdar edir. Beynəlxalq büro öz növbəsində maraqlı Tərəfə məlumat verir və Təlimatda göstərildiyi kimi, müvafiq dərci həyata keçirir. Mənşə İdarəsi, zərurət yarandığı halda, Beynəlxalq büroya müraciət edərək, müəyyən edilmiş qaydalara uyğun olaraq reyestrdən beynəlxalq qeydiyyatın çıxarılmasını xahiş edir və Beynəlxalq büro bu cür xahişi yerinə yetirir.

Maddə 7
**Beynəlxalq qeydiyyatın qüvvəsinin uzadılması**

(1) İstənilən beynəlxalq qeydiyyatın müddəti, növbəti müddəti bitdiyi tarixdən hesablanmaqla, 8 (7) maddəsi nəzərə alınmaqla əsas rüsumların, 8(2) maddəsində nəzərdə tutulan əlavə və üstəlik rüsumların ödənilməsi şərtilə on il müddətinə uzadıla bilər.

(2) Müddətin uzadılması zamanı beynəlxalq qeydiyyatın əvvəlki variantında hər hansı dəyişikliyin edilməsinə yol verilmir.

(3) Beynəlxalq büro mühafizənin bitməsinə altı ay qalmış, beynəlxalq qeydiyyatın sahibinə, zərurət yarandıqda isə onun patent müvəkkilinə qeyri-rəsmi bildiriş göndərməklə göstərilən müddətin bitdiyi dəqiq tarixi onların nəzərinə çatdırır.

(4) Beynəlxalq qeydiyyatın uzadılması üçün, Təlimatla müəyyən edilən əlavə rüsum ödənilməsi şərtilə, güzəşt olaraq əlavə altı ay müddət verilir.

Maddə 8
**Beynəlxalq iddia sənədinə və beynəlxalq qeydiyyata görə rüsumlar**

(1) Mənşə İdarəsi öz maraqları naminə, beynəlxalq iddia sənədinin verilməsi və ya beynəlxalq qeydiyyatın uzadılması üçün, uyğun olaraq iddiaçıdan və ya beynəlxalq qeydiyyatın sahibindən, öz xeyrinə rüsum müəyyən etmək və almaq hüququna malikdir.

(2) Beynəlxalq büroda nişanın qeydiyyatı, (7)(a) bəndinin müddəalarında göstərilənlər daxil olmaqla, əvvəlcədən beynəlxalq rüsum ödənilməsi şərtilə, aşağıdakılar nəzərə alınmaqla aparılır:

(i) əsas rüsum;

(ii) nişanın aid edildiyi əmtəə və xidmətlər üzrə beynəlxalq təsnifatın üç sinfindən artıq hər sinfinə görə əlavə rüsum;

(iii) 3ter maddəsinə uyğun mühafizənin genişləndirilməsi barədə hər ərizə üçün əlavə rüsum.

(3) Lakin (2)(ii) bəndində göstərilən əlavə rüsum, əgər əmtəələrin və ya xidmətlərin, siniflərinin miqdarı Beynəlxalq büro tərəfindən müəyyənləşdirilmiş və ya qəbul edilmişdirsə, Təlimatla müəyyən edilən müddətdə, beynəlxalq qeydiyyatın tarixinə təsir göstərmədən ödənilə bilər. Əgər müəyyən edilmiş müddət ərzində əlavə rüsum ödənilməyibsə və ya əgər iddiaçı tərəfindən əmtəələrin və ya xidmətlərin siyahısı lazım olan həddə qədər azadılmayıbsa, onda beynəlxalq iddia sənədi üzrə sonrakı kargüzarlıq işləri dayandırılmış hesab edilir.

(4) (2)(ii) və (iii) bəndlərində nəzərdə tutulan rüsumlara görə daxilolmalar istisna olmaqla, beynəlxalq qeydiyyata görə müxtəlif cür daxilolmalardan yaranan illik gəlirlər, bu Protokolla bağlı olan xərclər və məxariclər çıxılmaqla, Beynəlxalq büro tərəfindən Razılığa gələn Tərəflər arasında bərabər şəkildə paylaşdırılır.

(5) (2)(ii) bəndində göstərilən əlavə rüsumdan yaranan məbləğ hər ilin sonunda, ötən il ərzində mühafizəsi xahiş edilən nişanların miqdarından asılı olaraq, Razılığa gələn maraqlı Tərəflər arasında mütənasib şəkildə paylaşdırılır, ilkin ekspertizanı aparan Razılığa gələn Tərəflərə aid bu məbləğ Təlimatla müəyyən edilən əmsallar nəzərə alınmaqla hesablanır.

(6) (2)(iii) bəndi ilə müəyyən edilən, əlavə rüsumlardan yaranan məbləğ (5) bəndində göstərilən qaydaya müvafiq paylanır.

(7)(a) Razılığa gələn istənilən Tərəf bəyanat verə bilər ki, 3ter maddəsinə müvafiq göstərilən hər bir beynəlxalq qeydiyyata aid, həmçinin bu cür beynəlxalq qeydiyyatın uzadılmasına aid əlavə və üstün rüsumlardan ayırmalarla birlikdə, bəyannamədə göstərilən həcmdə rüsum (hundan sonra - fərdi rüsum) almaq niyyətindədir və onun ölçüsü sonrakı bəyannamədə dəyişdirilə bilər, lakin həmin məbləğ, beynəlxalq prosedur nəticəsində yaranan

səmərə hesabına artırıla bilməz. Göstərilən Razılığa gələn Tərəfin İdarəsi nişanın on il müddətə qeydiyyata alınmasına görə iddiaçıdan və ya bu İdarənin reyestrində qeydiyyatın on il müddətə uzadılmasına görə qeydiyyat sahibindən rüsum almaq hüququna malikdir.

Əgər fərdi rüsum ödənilirsə, onda:

(i) əgər 3 ter maddəsinə uyğun yalnız bu yarımbəndə müvafiq bəyanat verən Razılığa gələn Tərəf göstərilmişsə, (2)(ii) bəndində nəzərdə tutulan hər hansı əlavə rüsum tələb olunmur;

(ii) bu yarımbəndə uyğun bəyanat verən istənilən Razılığa gələn Tərəfə aid, (2)(iii) bəndində nəzərdə tutulan hər hansı əlavə rüsum tələb olunmur.

(b) (a) yarımbəndinə müvafiq istənilən bəyannamə 14 (2) maddəsində nəzərdə tutulan aktlara uyğun verilə bilər və bu zaman bəyannamənin qüvvəyə mindiyi tarix, bəyannamə verən dövlətlərə və ya hökumətlərarası təşkilatlara görə Protokolun qüvvəyə mindiyi tarixlə eyni olur. Bu cür bəyannamə həmçinin gec də verilə bilər; bu halda o, Baş direktorun bəyannaməni aldığı tarixdən üç ay sonra və ya beynəlxalq qeydiyyata aid bəyannamədə göstərilən hər hansı gec tarixdən, bəyannamənin tarixi ilə eyni olan tarixdən və ya daha gec tarixdən qüvvəyə minir.

Maddə 9

**Beynəlxalq qeydiyyatın sahibinin dəyişilməsi barədə qeydlərin daxil edilməsi**

Beynəlxalq qeydiyyat barədə adına qeydlər daxil edilən şəxsin bəyannaməsi əsasında və ya *ex offijio* verən maraqlı İdarənin xahişi üzrə və ya maraqlı şəxsin xahişi ilə Beynəlxalq büro, qeydiyyatda göstərilən əmtəələrin və xidmətlərin hamısı və ya müəyyən hissəsinə aid, qeydiyyatın qüvvədə olduğu Razılığa gələn Tərəflərin hamısı və ya bəzilərində, bu qeydiyyatın sahibi haqqında istənilən dəyişikliklərə dair qeydləri Beynəlxalq reyestrə daxil edir, o şərtlə ki, yeni sahib (2)1 maddəsinə uyğun beynəlxalq iddia sənədi vermək hüququna malik olan şəxs olsun.

Maddə 9 b i s

**Beynəlxalq qeydiyyata aid olan bəzi qeydlərin daxil edilməsi**

Beynəlxalq büro beynəlxalq reyestrdə:

(i) beynəlxalq qeydiyyatın sahibinin adı və ya ünvanı ilə bağlı istənilən dəyişikliklər barədə;

(ii) beynəlxalq qeydiyyatın sahibinin müvəkkilinin təyin edilməsi və həmin müvəkkilə aid bütün digər məlumatlar barədə;

(iii) Razılığa gələn Tərəflərin hamısı və ya bəzilərinə görə beynəlxalq qeydiyyatda göstərilən əmtəələrin və xidmətlərin siyahısına qoyulan istənilən məhdudiyyət barədə;

(iv) Razılığa gələn Tərəflərin hamısı və ya bəzilərinə görə beynəlxalq qeydiyyatdan imtina edilməsi, onun reyestrdən çıxarılması və ya etibarsız sayılması barədə;

(v) təlimatın şərtlərinə uyğun olaraq, beynəlxalq qeydiyyatın predmeti olan nişana görə hüquqlara aid istənilən digər müvafiq məlumatlar barədə qeydləri aparır.

Maddə 9 t e r

**Bəzi qeydlərin daxil edilməsi üçün rüsumlar**

9-cu maddəyə və ya 9ter maddəsinə müvafiq istənilən qeydlərin daxil edilməsi üçün rüsumlar tutula bilər.

Maddə 9 q u a t e r
**Razılığa gələn bir neçə Dövlətin vahid İdarəsi**

(1) Əgər Razılığa gələn bir neçə Dövlət nişanlar sahəsində özlərinin milli qanunlarını uyğunlaşdırmaq üçün razılığa gəlirlərsə, onda bu barədə Baş direktora bəyannamə verə bilərlər ki:

(i) vahid idarə bu dövlətlərin hər birinin milli idarəsini əvəz edir və (ii) onlara məxsus ümumi əraziyə bu maddənin əvvəlində əksini tapan müddəaların, həmçinin 9quinqüies və 9sexies maddələrinin müddəalarının hamısının və ya müəyyən hissəsinin tətbiqi zamanı bir dövlət kimi baxılmalıdır.

(2) Bu bəyannamə onun barəsində Baş direktorun Razılığa gələn Dövlətlərə bildiriş göndərdiyi tarixdən hesablanmaqla üç ay bitdikdən sonra qüvvəyə minir.

Maddə 9 q u i n q ü i e s
**Beynəlxalq qeydiyyatın milli və ya regional iddia sənədinə dəyişdirilməsi**

Əgər mənşə ölkəsinin İdarəsinin bəyannaməsi əsasında beynəlxalq qeydiyyat bu qeydiyyatda göstərilən əmtəələrin və xidmətlərin hamısı və ya müəyyən hissəsinə görə, 6(4) maddəsinə uyğun reyestrdən çıxarılırsa və beynəlxalq qeydiyyatın sahibi olan şəxs həmin nişanı qeydiyyata almaq üçün iddia sənədini beynəlxalq qeydiyyatın qüvvədə olduğu Razılığa gələn Tərəflərdən hər hansı birinin idarəsinə verirsə, onda həmin iddia sənədinə 3(4) maddəsinə uyğun beynəlxalq qeydiyyat tarixindən və ya 3ter (2) maddəsinə uyğun ərazi genişləndirilməsinə dair qeydlərin daxil edildiyi tarixdən verilən kimi baxılır və əgər beynəlxalq qeydiyyatda ilkinlikdən istifadə olunmuşsa, bu iddia sənədində də həmin ilkinlikdən istifadə olunacaqdır, o şərtlə ki:

(i) göstərilən iddia sənədi, reyestrdən beynəlxalq qeydiyyatın çıxarıldığı tarixdən hesablamaqla üç ay ərzində verilmiş olsun, (ii) iddia sənədində sadalanan əmtəələr və xidmətlər həqiqətən, Razılığa gələn maraqlı Tərəfə aid beynəlxalq qeydiyyatın tərkibinə daxil olan əmtəələrin və xidmətlərin siyahısı ilə eyni olsun, və (iii) göstərilən iddia sənədi, rüsumlar da daxil olmaqla qanunvericiliyin tətbiqi ilə əlaqədar bütün tələblərə uyğun olsun.

Maddə 9 s e x i e s
**Madrid Sazişinin saxlanması (Stokholm)**

(1) Əgər konkret iddia sənədinə və ya konkret qeydiyyata görə mənşə idarəsi, eyni zamanda bu Protokolun və Madrid Sazişinin (Stokholm) iştirakçısı olan dövlətin idarəsidirsə, onda bu Protokolun müddəaları eyni zamanda bu Protokolun və Madrid Sazişinin (Stokholm) iştirakçısı olan başqa digər dövlətin ərazisində qüvvədə olmayacaqdır.

(2) Assambleya dörddə üç səs çoxluğu ilə (1) bəndini ləğv edə və ya bu Protokolun qüvvəyə mindiyi tarixdən hesablamaqla, on il müddət bitdikdən sonra onun fəaliyyət sahəsini məhdudlaşdıra bilər, lakin bunun üçün Madrid Sazişinin (Stokholm) iştirakçısı olan ölkələrin əksəriyyətinin bu Protokola tərəfdaşlıq tarixindən hesablamaqla beş il müddət keçmədən həyata keçirilə bilməz. Eyni zamanda göstərilən Sazişə və bu Protokola tərəfdar çıxan dövlət Assambleyada səsvermədə iştirak etmək hüququna malikdir.

Maddə 1 0

**Assambleya**

(1)(a) Razılığa gələn Tərəf, Madrid Sazişinin (Stokholm) iştirakçısı olan ölkələrin təmsil olunduğu Assambleyanın üzvü olur.

(b) Bu Assambleyada Razılığa gələn hər bir Tərəf müavinləri, müşavirləri və ekspertləri ola bilən bir nümayəndə ilə təmsil olunur.

(c) Razılığa gələn hər bir Tərəfin İttifaqa təklif etdiyi bir nəfər üçün nəqliyyat və yaşama xərcləri istisna olmaqla, hər bir nümayəndənin xərclərini onu təyin edən Razılığa gələn Tərəf ödəyir.

(2) Assambleya, Madrid Sazişinə (Stokholm) uyğun ona tapşırılan vəzifələri yerinə yetirməklə yanaşı:

(i) bu Protokolun tətbiqi ilə bağlı bütün məsələlərə baxır;

(ii) bu Protokola tərəfdar çıxmayan, lakin İttifaqa üzv olan ölkələrin də iradlarını nəzərə almaqla, bu Protokola yenidən baxmaq üçün konfransların hazırlanması barədə beynəlxalq büroya göstərişlər verir;

(iii) bu Protokolun tətbiqinə aid Təlimatın müddəalarına edilən dəyişiklikləri qəbul edir və dəyişikliklər aparır;

(iv) bu Protokola uyğun, onun üzərinə qoyulan digər funksiyaları yerinə yetirir.

(3) (a) Razılığa gələn hər bir Tərəf bir səsə malikdir. Yalnız Madrid Sazişinə (Stokholm) üzv olan ölkələrlə bağlı məsələlərə dair, Razılığa gələn Tərəf bu Sazişin iştirakçısı olmadığı halda səsvermə hüququna malik olmur, lakin məsələlər yalnız Razılığa gələn Tərəflərə aid olduqda isə səsvermə hüququna malik olurlar.

(b) Konkret məsələlər üzrə səs vermə hüququna malik Assambleya üzvlərinin yarısı, həmin məsələlərlə bağlı səs vermədə kvorum təşkil edir.

(c) (b) yarımbəndinin müddəalarına baxmayaraq, əgər hər hansı sessiyada konkret məsələ ilə bağlı səs vermək hüququna malik olan və Assambleyada təmsil olunan üzvlərin sayı yarıdan az, lakin həmin məsələ ilə bağlı səsvermə hüququna malik Assambleya üzvlərinin üçdə birinə bərabər və ya ondan artıq olarsa, Assambleya qərar qəbul edə bilər; ancaq Assambleyanın bu cür qərarları, onun özünəməxsus prosedur qaydalarına aid qərarları istisna olmaqla, yalnız aşağıdakı şərtlər daxilində qüvvəyə minir. Beynəlxalq büro həmin qərarları Assambleyada təmsil olunmayan, lakin həmin məsələ üzrə səsvermə hüququna malik olan Assambleya üzvlərinə göndərir və qərarların göndərilmə tarixindən hesablamaqla üç ay ərzində qərarların lehinə, əleyhinə səs vermələri və ya bitərəf qalmaları barədə yazılı məlumat verməyi xahiş edir.Verilən müddət ötdükdən sonra səsvermədə iştirak edən və ya bitərəf qaldıqlarını bildirən üzvlərin sayı sessiyanın yetərsay şərtini ödəyirsə, bu cür qərar eyni zamanda zəruri səs çoxluğu şərtini saxlamaqla qüvvəyə minir.

(d) Assambleyanın qərarları, 5(2)(e), 9sexies (2), 12 və 13(2) maddələrinin müddəaları nəzərə alınmaqla, verilən səslərin üçdə iki səs çoxluğu ilə qəbul edilir.

(e) Bitərəf qalanların səsləri səslərin hesablanmasında nəzərə alınmır.

(f) Nümayəndə yalnız bir Assambleya üzvünü təmsil edə və onun adından səs verə bilər.

(4) Madrid Sazişinə (Stokholm) uyğun olaraq növbəti və növbədənkənar sessiyalardan başqa, Assambleyanın növbədənkənar sessiyası, bu sessiyanın gündəliyinə daxil edilmək üçün təklif olunan məsələlərlə bağlı səs vermək hüququna malik Assambleya üzvlərinin dörddə birinin tələbi ilə Baş direktor tərəfindən çağırılır. Bu cür növbədənkənar sessiyanın gündəliyi Baş direktor tərəfindən hazırlanır.

Maddə 11

**Beynəlxalq büro**

(1) Bu Protokola uyğun beynəlxalq qeydiyyatla bağlı funksiyaları, həmçinin bu Protokola aid digər inzibati funksiyaları Beynəlxalq büro həyata keçirir.

(2) (a) Assambleyanın göstərişlərinə uyğun olaraq Beynəlxalq büro bu Protokola yenidən baxılma üzrə konfransları təşkil edir.

(b) Beynəlxalq büro bu Protokola yenidən baxılma üzrə konfransların təşkili məsələləri ilə əlaqədar hökumətlərarası və beynəlxalq qeyri-hökumət təşkilatları ilə məsləhətləşmələr apara bilər.

(c) Baş direktor və onun təyin etdiyi şəxs yenidən baxılma üzrə bu konfranslarda məsələlərin müzakirəsi zamanı səsvermə hüququna malik olmurlar.

(3) Beynəlxalq büro bu Protokola aid, funksiyasına daxil olan və onun qarşısında qoyulan istənilən digər tapşırıqları yerinə yetirir.

Maddə 12

**Maliyyə**

İttifaqın Razılığa gələn Tərəfə aid maliyyəsi Madrid Sazişinin (Stokholm) 12-ci maddəsində olan müddəalara uyğun tənzimlənir və bu zaman göstərilən Sazişin 8-ci maddəsinə edilən istinada bu Protokolun 8-ci maddəsinə edilən istinad kimi baxılır. Bununla yanaşı, göstərilən Sazişin 12(6)(b) maddəsinin məqsədləri üçün Razılığa gələn təşkilatlara, əgər Assambleya yekdilliklə başqa qərar qəbul etməzsə, sənaye mülkiyyətinin mühafizəsi sahəsində Paris Konvensiyasına uyğun olaraq, üzvlük haqqına görə birinci sinfə (İ) aid olan kimi baxılır.

Maddə 13

**Protokolun bəzi maddələrinə düzəlişlər**

(1) 10, 11, 12-ci maddələrə və bu maddəyə düzəlişlərin daxil edilməsinə dair təkliflər Razılığa gələn istənilən Tərəf və ya Baş direktor tərəfindən verilə bilər. Baş direktor tərəfindən bu cür təkliflər Assambleyada onların baxılmasına ən azı altı ay qalmış Razılığa gələn Tərəflərə göndərilir.

(2) (1) bəndində göstərilən maddələrə istənilən düzəlişlər Assambleyada verilən səslərin dörddə üç səs çoxluğu ilə qəbul olunur; lakin 10-cu maddəyə və bu bəndə edilən düzəlişlər beşdə dörd səs çoxluğu ilə qəbul olunur.

(3) (1) bəndində göstərilən maddələrə istənilən düzəlişlər, həmin vaxtda Assambleyaya üzv olan və bu düzəlişlərə görə səsvermə hüququna malik olan dövlətlərin və hökumətlərarası təşkilatların konstitusiya prosedurlarına uyğun olaraq həyata keçirilərək qəbul olunan və onların dörddə üçündən bu barədə yazılı bildirişi Baş direktor aldığı tarixdən bir ay sonra qüvvəyə minir. Bu yolla göstərilən maddədə aparılan istənilən düzəliş, düzəlişin qüvvəyə mindiyi tarixdən, Razılığa gələn Tərəfin üzvü olan və ya həmin tarixdən sonra üzv olacaq bütün dövlətlər və hökumətlərarası təşkilatlar tərəfindən zəruri öhdəlik kimi qəbul olunur.

Maddə 14

**Protokolda iştirakın şərtləri. Qüvvəyə minmə**

(1)(a) Sənaye mülkiyyətinin mühafizəsi məsələləri üzrə Paris Konvensiyasının iştirakçısı olan istənilən dövlət bu Protokolun iştirakçısı ola bilər.

(b) Bununla yanaşı, istənilən hökumətlərarası təşkilat, aşağıdakı şərtlərə riayət etməklə bu Protokolun iştirakçısı ola bilər:

(i) bu təşkilata üzv olan dövlətlərdən ən azı biri Sənaye mülkiyyətinin mühafizəsi məsələləri üzrə Paris Konvensiyasının üzvüdür;

(ii) göstərilən təşkilat, bu təşkilatın ərazisində qüvvədə olan nişanların qeydiyyatı məqsədləri üçün regional idarəyə malikdir, əgər bu cür idarə 9quater maddəsinə əsasən bildiriş obyekti deyildirsə.

(2)(1) bəndində göstərilən istənilən dövlət və ya təşkilat bu Protokolu imzalaya bilər. (1) bəndində göstərilən və bu Protokolu imzalayan istənilən dövlət və ya təşkilat, təsdiqnaməsini, bu Protokolun qəbul edilməsi və ya bəyənilməsi barədə sənədləri, bu Protokolu imzalamayanlar isə bu Protokola qoşulma aktını saxlanılmaq üçün təhvil verə bilərlər.

(3) (2) bəndində göstərilən aktlar saxlanılmaq üçün Baş direktora verilir.

(4)(a) bu Protokol, dörd təsdiqnamənin, qəbul etmə və bəyənmə barədə sənədlərin və ya qoşulma aktının saxlanılmaq üçün təhvil verilməsindən üç ay sonra qüvvəyə minir, o şərtlə ki, həmin sənədlərdən ən azı biri Madrid Sazişinin (Stokholm) üzvü olan dövlət, həmin sənədlərdən ən azı biri Madrid Sazişinin (Stokholm) üzvü olmayan dövlət və ya (1)(b) bəndində göstərilən təşkilatların biri tərəfindən verilmiş olsun.

(b) (1) bəndində göstərilən istənilən başqa dövlət və ya təşkilatlar üçün bu Protokol onun təsdiqnaməsinə, qəbul etmə, bəyənmə barədə sənədlərinə və ya ona qoşulma aktına dair Baş direktorun verdiyi bildiriş tarixindən üç ay sonra qüvvəyə minir.

(5) (1) bəndində göstərilən istənilən dövlət və ya təşkilat, öz təsdiqnaməsində, qəbul etmə, bəyənmə sənədlərində və ya bu Protokola qoşulma aktında bildirə bilər ki, bu dövlət və ya təşkilat üçün, Protokolun qüvvəyə mindiyi tarixə qədər, bu Protokolun qüvvəsi ilə beynəlxalq qeydiyyat nəticəsində yaranan mühafizə onlara şamil edilə bilməz.

Maddə 1 5

**Denonsasiya**

(1) Bu Protokol məhdudiyyət qoyulmadan qüvvədədir.

(2) Razılığa gələn istənilən Tərəf Baş direktora bildiriş göndərməklə bu Protokolu denonsasiya edə bilər.

(3) Denonsasiya Baş direktorun bildirişi aldığı gündən bir il sonra qüvvəyə minir.

(4) Bu maddədə nəzərdə tutulan denonsasiya hüququndan Razılığa gələn Tərəf həmin Tərəf üçün Protokolun qüvvəyə mindiyi tarixdən hesablanmaqla beş il müddət ötməyənə kimi istifadə edə bilməz.

(5)(a) Əgər nişan, denonsasiyanın qüvvəyə mindiyi tarixdən, bu Protokolu denonsasiya edən dövlət və ya hökumətlərarası təşkilatda qüvvədə olan beynəlxalq qeydiyyatın predmetidirsə, onda göstərilən qeydiyyatın sahibi, bu cür dövlətin və ya beynəlxalq təşkilatın idarəsinə həmin nişana görə iddia sənədi verə bilər. Bu zaman ona 3(4) maddəsinə uyğun beynəlxalq qeydiyyat tarixindən və ya 3ter (2) maddəsinə uyğun ərazinin genişləndirilməsi barədə qeydlərin daxil edildiyi tarixdən verilən iddia sənədi kimi baxılır və əgər qeydiyyat zamanı ilkinlikdən istifadə edilmişsə, həmin ilkinlikdən də istifadə olunur, o şərtlə ki:

(i) bu cür iddia sənədi denonsasiyanın qüvvəyə mindiyi tarixdən hesablanmaqla iki il ərzində verilmiş olsun;

(ii) iddia sənədində göstərilən əmtəə və xidmətlər, bu Protokolu denonsasiya edən dövlət və ya təşkilata aid beynəlxalq qeydiyyatda ifadə olunan əmtəə və xidmətlərin siyahısı ilə həqiqətən eynilik təşkil etsin və

(iii) bu cür iddia sənədi, rüsumlar da daxil olmaqla, qanunvericiliyin tətbiqinin bütün tələblərinə uyğun gəlsin;

(b) (a) yarımbəndin müddəaları həmçinin denonsasiyanın qüvvəyə mindiyi tarixdən, bu Protokolu denonsasiya edən dövlət və ya hökumətlərarası təşkilatdan fərqli, Razılığa gələn

Tərəflərə qüvvədə olan beynəlxalq qeydiyyatın predmeti olan istənilən nişana şamil edilir və denonsasiyanın nəticəsi olaraq nişan sahibi 2 (1) maddəsinə uyğun olaraq beynəlxalq iddia sənədi vermək hüququndan məhrum olur.

Maddə 16

**İmzalanma, dillər. Depozitarinin funksiyaları**

(1)(a) Bu Protokol ingilis, ispan və fransız dillərində bir nüsxədə imzalanır və saxlanılmaq üçün Baş direktora verilir, bundan sonra Madriddə imzalanma üçün bağlanır. Hər üç dildə olan mətnlər tamamilə eyni qüvvəyə malikdir.

(b) Bu Protokolun rəsmi mətni Baş direktor tərəfindən maraqlı hökumətlərlə və təşkilatlarla məsləhətləşmələr aparıldıqdan sonra ərəb, italyan, Çin, alman, portuqal, rus və yapon dillərində, həmçinin Assambleyanın müəyyən etdiyi başqa dillərdə tərtib edilir.

(2) Bu Protokol 1989-cu il dekabrın 31-dək Madriddə imzalanmaq üçün açıqdır.

(3) Baş direktor bu Protokolun imzalanmış mətninin İspaniya Hökuməti tərəfindən lazımi qaydada təsdiqlənmiş iki ədəd surətini bu Protokolun iştirakçısı ola biləcəyi güman edilən bütün dövlətlərə və hökumətlərarası təşkilatlara göndərir.

(4) Baş direktor bu Protokolu Birləşmiş Millətlər Təşkilatının Katibliyində qeydiyyatdan keçirir.

(5) Baş direktor bu Protokola üzv olacağı gözlənilən və ya artıq tərəfdaş olan bütün dövlətlərə və beynəlxalq təşkilatlara imzalanma, saxlanılma üçün ratifikasiya bəyannaməsinin verilməsi haqqında, qəbul etmə, bəyənilmə sənədləri barədə və ya qoşulma aktları barədə, həmçinin bu Protokolun qüvvəyə minməsi, onun istənilən dəyişiklikləri, denonsasiya barədə istənilən xəbərdarlıqlar və bu Protokolda nəzərdə tutulan istənilən bəyanatlar barədə bildirişlər göndərir.